# "RUHUMUZUN YAZ HAVASI"



AYB Mingəçevir bölməsinin iyun ayında "Gənclik" nəşriyyatının qrifti ilə çap etdirdiyi "Ruhumuzun yaz havası almanaxı"nın AYB-nin Natəvan klubunda düzənlənən təqdimat mərasimini bəlkə də əyalətdə yaşayan söz adamlarının ədəbi hesabatı kimi də dəyərləndirmək olar. Mingəçevirli yazarların bir qismi ilə yanaşı paytaxt Bakıda yazıb-yaradan alim və yazıçı-şairlərin də qatıldıqları tədbiri giriş sözü ilə açan Azərbaycan Yazıçılar Birliyinin katibi, yazıçı-dramaturq İlqar Fəhmi paytaxtda deyil, bölgələrdə yaşayıb-yaradan şair və nasirlərin yaratdığı ədəbi nümunələrin təbliği, gənc müəlliflərin üzə çıxması sahəsində uğurlu iş olduğunu qeyd edərək, bu baxımdan AYB Mingəçevir bölməsinin sədri İsmayıl İmanzadənin böyük zəhmət sahibi olduğunu vurğulamaqla, çıxışının sonunda hamıya uğurlar arzuladı..

Görkəmli ədəbiyyatşünas alim, filologiya üzrə elmlər doktoru Vaqif Yusifli isə dedi: "Mingəçevir haqında düşünəndə Mikayıl Müşfiqin Mingəçevirə həsr etdiyi poeması və Səməd Vurğunun "Muğan" poeması yadıma düşür. Bu gün təqdim olunan və bölgədə yaşayan müəlliflərin poeziya, nəsr və publisistika nümunələrindən ibarət "Ruhumuzun yaz havası" almanaxı ölkəmizdə işıq şəhəri kimi tanınan Mingəçevirdə ədəbi mühitin qaynarlığından xəbər verir. Yeni almanax ayrı-ayrı illərdə dərc edilən "Aranın söz sovqatı", "Uzaqdan gələn səs" və "Bir ocağın şöləsiyik" toplularından sonra sayca dördüncüdür və burada 31 söz adamının yaradıcılığından nümunələr verilib. Bu gün bizə unudulmaz anlar bəxş etməyə qadir olan "Ruhumuzun yaz havası" isə payızda açan son çiçəklər kimi hamımıza bahar təravəti gətirəcəyini əminlik hissiylə qeyd eləyə bilərəm!"

Təqdimat mərasiminin aparıcısı, "Kredo" qəzetinin baş redaktoru, görkəmli şair-publisist Əlirza Xələfli, almanaxda yazıları yer alan mingəçevirli yazarları təbrik edəndən sonra, Əməkdar jurnalist, şair, filologiya üzrə fəlsəfə doktoru Adil Cəmil Mingəçevir ədəbi mühitinin son illərdə formalaşması, gənc ədəbi qüvvələrin istiqamətləndirilməsi və onların ədəbi mühitə çıxmasında bölmənin rəhbəri, şair İsmayıl İmanzadənin xüsusi rolundan danışdı. Tanınmış şair-publisist "Yazarlar.az" ədəbi dərgisinin və eyni adlı jurnalın təsisçisi və baş redaktoru, halal zəhməti və işgüzarlığı ilə çoxlarının ehtiramını qazanan Zaur Ustac isə mingəçevirli qələm dostlarına uğurlar arzulamaqla, onların hər birinin diplomla təltif edildiyini bildirərək, "Ruhumuzun yaz havası" almanaxında şeir, hekayə və elmi-tədqiqat xarakterli əsərləri dərc edilən bir necə qələm sahibinə mükafatları təqdim etdi.

Təqdimat mərasiminə könül xoşluğu ilə gəldiyini vurğulayan ehtiyatda olan polis polkovniki, tarix elmləri namizədi, istedadlı şair Əjdər Yunus Rza ədəbiyyat aləminə bir vaxtlar Cəbrayılda fəaliyyət göstərən "Ümid" Ədəbi Klubunun rəhbəri İsmayıl İmanzadənin xeyir-duasıyla gəldiyini vurğulayaraq, təqdimat mərasimində yenicə çapdan çıxan gənc şair Seymur Sönməzin "Mənim şəhadətim məhəbbətimdir" adlı şeirlər kitabı haqqında da dəyərli fikirlər söylədi. Tanınmış yazıçı-publisist Hacı Əlisahib Əroğulun yazarlara yönəlik xeyir-dualarından sonra, bu il AYB-yə üzv qəbul olunanlardam şair-esseist Gülnarə Acalova, bir sıra maraqlı uşaq hekayələrinin müəllifi İlahə Qəhrəman, tanınmış şair Valeh Heydər, şair İldırım Əlişoğlu, uzun illərdən bəri imzaları oxuculara tanış olan şair Namiq Zaman və hüquqşünas şair, "Söz süfrəsi" ədəbi məclisinin rəhbəri Bəhman Gülövşəli çıxış edərək sevinclərini həmkarları ilə bölüşdülər. Mərhum şair Murad Xasmədovun oğlu Elşən Xasməmmədov və bu ilin əvvəllərində dünyasını dəyişən tanınmış şair Fəxrəddin Əzizin Bakıda yaşayan qardaşı oğlu Sahib Əzizov əzizlərinə yönəlik ehtiram hissinə görə bölmə rəhbərinə və mərasimə qatılanlara minnətdarlıqlarını bildirdilər. "Azad qələm" jurnalının baş redaktoru, Prezident mükafatçısı, şairə Nəcibə İlkin gənc şair Seymur Sönməzin "Mənim şəhadətim məhəbbətimdir" şeirlər kitabının nəşrə hazırlanmasında çəkdiyi zəhmətə görə müəllifə sidqi-ürəklə halallıq verdiyini vurğulayaraq, ona və almanaxda yazıları dərc olunan keçmiş həmyerlilərinə uğurlar dilədi.

Paytaxtda yaşayıb yaradan tanınmış söz sahiblərindən Rafiq Mirzə, Malik Əhmədoğlu, Ziyadxan Budaq, Qəzənfər Mənsimoğlu, Elmira Aslanxanlı, yazıçı-publisist Məhərrəm Şəmkirli, Asif Ata ocağının layiqli davamçısı İşıqlı

Atalı, Alim Aslanoğlu, mingəçevirli yazarlara ürəkdən xeyir-dualar verən Əfşan Yusifqızı və AYB Mingəçevir bölməsinin nəzdində fəaliyyət göstərən "Mingəçevir qönçələri" ədəbi məclisinin üzvü Gülnarə Dünya da səmimi çıxışları ilə tədbirə əlvan söz çalarları qatdılar.

Cəbrayıl rayonunun işğalından sonra müvəqqəti olaraq Bakıda yaşamağa məcbur olan şərəfli həyat yolu keçmiş ziyalılar-Arif Məhidov və Vidadi Hümbətov tədbirə qatıldıqlarından çox məmnun olduqlarını, görkəmli şair-publisist həmyerliləri, AYB Mingəçefir bölməsinin sədri İsmayıl İmanzadənin bir vaxtlar Cəbrayılda olduğu kimi, Mingəçevirdəki ədəbi aləmdə də aparıcı rola sahib olduğunu fəxarət hissiylə qeyd etdilər. Əslən Cəbrayıl rayonunun Maralyan kəndindən olan İqrar Həsənova söz veriləndə məlum oldu ki onun böyük oğlu Malik Həsənov boks üzrə respublika yığma komandasının üzvüdür və bu yaxınlarad Ruminiyada keçirilən beynəlxalq yarışda birinci yeri tutaraq çempion kimi ölkəmizə qayıdıb. Tədbir iştirakçıları Maliki alqışlayaraq ona növbəti yarışlarda da uğurlar dilədilər. Sonda İsmayıl İmanzadə: "Son 22 il ərzində Natəvan Klubunda bir sıra önəmli tədbirlərdə iştirak etmişəm, ancaq bölmənin xəttiylə keçirilən 11 tədbirin təşkilatçılarından biri olsam da, burada heç vaxt şeir oxumamışam. Bölmə rəhbəri "Qoyun çıxıb gedim gəldiyim yerə" adlı şeirini oxuyandan sonra, tədbirin keçirilməsinə verdikləri dəstəyə görə AYB rəhbərliyinə, məclisi peşəkar sənətkarlara məxsus bir tərzdə idarə edən şair-publisist Əlirza Xələfliyə və təqdimat mərasiminə qatılmaqla böyük savab sahibi olan yaradıcı dostlarına və həmyerlilərinə bir daha minnətdarlığını bildirdi. Tədbirin ayrı-ayrı məqamlarında çəkilən foto-şəkillər isə unudulmaz xatirələrin qəlblərdə illər boyu yaşamasına dəstəkçi oldu...









*Vahid QAFARLI,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*